**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin çıxışı**
**Azərbaycan Respublikasının Milli Məclisi**
**20 dekabr 2022-ci il**

**Çox hörmətli Sahibə xanım!**

**Dəyərli millət vəkilləri və media nümayəndələri!**

**Gender bərabərliyinin təmin edilməsi ilə bağlı** 2021-ci ildə görülən işlərdən danışmazdan əvvəl ötən ilin xalqımızın tarixinə Vətən müharibəsindən sonra hər tərəfli bərpa və quruculuq işlərinə start verilməsi mərhələsi kimi daxil olduğunu qeyd etmək lazımdır. Quruculuq işləri - Zəfərin davamıdır. Prezident İlham Əliyevin dediyi kimi, "yenidənqurma prosesində ölkəmizin hədəfi - keyfiyyət və sürəti birləşdirməkdir".

Bu baxımdan  Böyük Qayıdışa dair Dövlət  Proqramı" çərçivəsində həyata keçiriləcək genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına şərait yaradacaqdır.

Geri qayıdan əhaliyə dəstək və onların adaptasiyası ilə bağlı tədbirlərin daha səmərəli həyata keçirilməsi üçün Laçın İcma Resurs Mərkəzinin, Füzuli və Zəngilanda ailə mərkəzlərinin yaradılması planı ərazilərə qayıdacaq soydaşlarımız, habelə hədəf şəxslərin müvafiq xidmətlərlə əhatəsinin gücləndirilməsinə xidmət edəcəkdir.

Bu kontekstdə BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması üzrə Komitəsi tərəfindən 2022-ci ildə Azərbaycan Hökumətinin 6-cı dövri hesabatı üzrə təqdim edilmiş Yekun müşahidələrində ölkəmizdə milli qanunvericiliyin təkmilləşdirilməsi sahəsində əldə olunan tərəqqi, eyni zamanda, gender bərabərliyini təşviq etmək üçün institusional və siyasi çərçivənin inkişafına dair  irəliləyişlərin qeyd edildiyini vurğulamaq istərdim.

2021-ci ildə Dövlət Komitəsi tərəfindən qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təşviq edilən və ən çox dəstəklənən təkliflərdən biri - atalar üçün ödənişsiz məzuniyyət hüququnun müəyyən edilməsi olmuşdur.

Digər bir məsələ qadın əməyinin tətbiqi qadağan edilən iş yerlərinin siyahısına yenidən baxmaq və bununla əlaqədar normaların beynəlxalq sənədlərə uyğunlaşdırılması ilə bağlı

olmuşdur. (Təklifin nəticəsi olaraq 5 noyabr 2022-ci il tarixli Qanunla AR Əmək Məcəlləsinə müvafiq dəyişikliklər qəbul olundu. Belə ki, əmək şəraiti zərərli və ağır olan iş yerlərində bütün qadınların deyil, yalnız hamilə və bir yaşına çatmamış uşağı olan qadınların əməyinin tətbiqi qadağan edildi).

Bununla yanaşı, Dövlət Komitəsi "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun tətbiqi ilə bağlı formalaşmış təcrübədən irəli gələrək zərər çəkmiş şəxslərin müdafiəsi sahəsindəki movcud boşluqların aradan qaldırılması məqsədi ilə qanunvericiliyə 5 istiqamətdə dəyişiklik və əlavələr edilməsinə dair təkliflər paketi hazırlamışdır.

Həmçinin tərəfimizdən hazırlanmış "Azərbaycan Respublikasında Gender bərabərliyi üzrə 2023-2025-ci illər üçün Milli Fəaliyyət Planı"nın gələcəkdə təsdiq edilməsi həyatın bütün sahələrində gender bərabərliyinin təşviqi və bərabər imkanların yaradılması baxımından mühüm töhfələr verə bilər.

**Hörmətli Millət Vəkilləri!**

2021-ci ildə də Azərbaycan gender bərabərliyinin təmin edilməsinə yönəlik zəruri alət və mexanizmlərin inkişafı istiqamətində mühüm addımlar atmışdır.

Gender mexanizmlərinin əlçatanlığını təmin etmək üçün regionlarda Uşaq Ailə Dəstək Mərkəzləri təmsilçiliyi fokusda saxlanılmışdır. 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın iştirakı ilə İsmayıllı Uşaq və Ailələrə Dəstək Mərkəzinin yeni binasının açılışı baş tutmuşdur.

Ümumilikdə, Mərkəzlər şəbəkəsinin fəaliyyəti nəticəsində görülmüş işlər haqqında Dövlət Komitəsinin 2021-ci il üçün məlumatında müfəssəl göstərilmişdir.

Hesabat dövrü ərzində **Gender məsələləri üzrə məsul şəxslərin** fəaliyyəti şaxələndirilmiş, onların təşkilatçılığı ilə beynəlxalq qurumlarla əməkdaşlıq, cinsi ayrı-seçkiliklə mübarizə üsulları, müxtəlif mövzularda təlim kursları və maarifləndirmə işləri həyata keçirilmişdir.

Gender bərabərliyi üzrə məsul şəxslər üçün **"Gender Azerbaijan" elektron portalının** yaradılmasına başlanılmışdır. Bununla yanaşı, "Gender bərabərliyi üzrə məsul şəxslərin fəaliyyətini tənzimləyən Təlimat" və "Dövlət qulluğunda gender bərabərliyi üzrə Kurikulum"

vəsaiti hazırlanmış və çap edilmişdir. (CEDAW)

Yerlərdə qadınların seçkili orqanlarda təmşilçiliyini gücləndirmək üçün 2021-ci ildə bələdiyyələrdə yaradılmış **Gender komissiyalarının** nümayəndələri üçün bələdiyyələrin hüquq və vəzifələri, gender bərabərliyi, liderlik mövzularında təlimlərə start verilmişdir.

**Qadın Resurs Mərkəzlərinin** fəaliyyəti daha da genişləndirilmiş, 2021-ci ildə Göyçay və Tovuz rayonlarında yeni Qadın Resurs Mərkəzləri, Füzuli, Tərtər və Ağcabədi rayonlarında isə **İcma Resurs Mərkəzləri** yaradılmışdır.

Gender pariteti gündəliyinin **İKT istiqamətində və virtual platformalarda** müzakirəsi və maarifləndirmə işlərinin daha effektiv təşkili üçün Dövlət Komitəsi media və İKT resurslarında fəalyyətini genişləndirmişdir. Komitənin "Facebook" səhifəsi rəsmi olaraq mavi nişanla təsdiqlənmişdir. BMT-nin Uşaq Fondunun dəstəyi ilə "Valideyn nəzarəti və internet təhlükəsizliyi" resursu təkmilləşdirilərək fəaliyyəti bərpa edilmişdir. Komitənin veb səhifəsində "Məişət zorakılığı" adlı xüsusi bölmə yaradılmış və "860" saylı qaynar xətti əlavə edilmişdir.

Dövlət Komitəsinin saytında "Onlayn müraciət" hissəsi vətəndaş müraciətlərinin təhlili və gender bərabərliyi gündəliyinə daha dəqiq fokuslanmağa imkan yaratmışdır.

**Gender bərabərliyi mədəniyyətinin təbliği** sahəsində beynəlxalq və yerli tərəfdaşlarımızla birgə çoxsaylı layihələr icra edilmiş, seminarlar, təlimlər, onlayn görüş və vebinarlar keçirilmiş, daha geniş auditoriya və həssas qrupları əhatə etmək və maarifləndirmə işlərini şaxələndirmək üçün elektron və çap məhsulları yayılmışdır. Bu barədə ətraflı informasiya təqdim edilən məlumatda əks olunmuşdur.

**Dəyərli Milli Məclis üzvləri,**

Azərbaycanda həyata keçirilən dövlət qadın siyasəti ölkənin beynəlxalq sənədlərlə öz üzərinə götürdüyü öhdəliklərə uyğun implementasiya olunur. Çünki hər kəs üçün bərabər iştirak və imkanların yaradılması daha yaxşı inkişaf üçün əsas meyarlardandır.

2021-ci il ərzində Dövlət Komitəsinə daxil olmuş vətəndaş müraciətlərinin təhlili ilkin olaraq belə bir təəsürat yaradır ki, ölkə ərazisində cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin ən geniş yayılmış forması məişət zorakılığı olaraq qalmışdır. Lakin məlumdur ki, ayrı-seçkiliyin digər təzahürlərini yaradan mənfi gender steriotipləri kişi və qadınların düşüncə və

davranışına təsir etməklə belə halların onlar tərəfindən məhz hüquq pozuntusu kimi qəbul edilməsinə əngəl yaradır və nəticədə müdafiə üçün mövcud imkanlardan istifadə edilmir.

Odur ki, ayrı-seçkiliyin bütün formalarının aşkar edilməsi və aradan qaldırılması üçün müxtəlif sahələrdə həyata keçirilən siyasətlərin, o cümlədən qanunvericiliyn **gender ekspertizasının aparılması qaydasının müəyyən edilməsi və onların icra vəziyyətinin gender bərabərlliyi baxımından monitorinqi zəruridir.**

Qanunun 17-ci maddəsinə əsasən zərərçəkmiş şəxslərə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yardım edilməsi üzrə Hüquq müdafiəçilərinin fəallıq göstərmələri və məhkəmə presedentlərinin formalaşması insan hüquqlarının təmini baxımdan çox önəmlidir. Bu baxımdan Dövlət Komitəsinin Azərbaycan Respublikasının Vəkillər Kollegiyası ilə faydalı müzakirələri bir sıra yeni təkliflərin formalaşmasını şərtləndirmişdir.

Dövlət Komitəsinin digər qurumlarla birgə 2021-ci ildə həyata keçirdiyi tədbirlər nəticəsində 6 məhkəmə qətnaməsində Qanuna istinad edilsə də, bu işlər 17-ci maddəyə əsasən cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə məruz qalan şəxslərə zərərin ödənilməsi ilə əlaqədar olmamışdır. Qanunda məhkəmə müdafiəsi ilə bağlı təminatın olmasına baxmayaraq, bu sahədə hələ də hüquq tətbiqetmə təcrübəsinin formalaşmaması ictimai münasibətlərdə ayrı-seçkiliyin yol verilməzliyi prinsipinin bir çox hallarda formal anlayış olaraq dərk edildiyini göstərir.

Hesabat ilində dövlət orqanları tərəfindən məişət zorakılığının qarşısının alınması istiqamətində həyata keçirilmiş tədbirlər “Milli Fəaliyyət Planı”nına uyğun aparılmışdır. Planın icra vəziyyətinə dair icraçı orqanlardan toplanılmış məlumatlar əsasında illik hesabat AR Prezidentinə təqdim edilmişdir.

2021-ci ildə respublikada qadınlara qarşı zorakılıqla müşayiət olunan **2197** cinayət qeydə alınmışdır. Bu cinayətlərin **20%-i** və yaxud hər beşincisi qısqanclıq və sair ailə-məişət münaqişələri səbəbindən baş vermişdir. Qeyd etməliyəm ki, cinsi zorakılıqla bağlı dünyada da artım müşahidə edilmişdir. Ötən illə müqayisədə 2021-ci ildə ölkəmizdə zərər çəkmiş şəxslərin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə verilmiş mühafizə orderlərinin sayı artmışdır. Ailə münaqişəsi zəminində görülən operativ cavab tədbirləri ilə **10.600 hüquqazidd əməlin** qarşısı alınmışdır. Məişət zorakılığı ilə mübarizə sahəsində işlərin gücləndirilməsi məqsədilə həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial

Reabilitasiya Müəssisəsində **“Məişət zorakılığından zərər çəkənlər üçün sosial reabilitasiya” şöbəsi** ötən il ərzində fəaliyyətə başlayıb.

2021-ci ildə zorakılıqla bağlı cəmiyyətin “sentimentini təhlil etmək üçün” sahəvi araşdırma və sorğular keçirilmişdir. Bir sıra mövzular üzrə respondentlərə ünvanlanmış suallar (“Zorakılıq törədənlərin tərkibi”, “Müraciət edilmiş ünvanlar”, “Dövlət orqanlarına müraciətdən məmnunluq”, “Zorakılıq törədənlərlə barışığın səbəbləri” və sair) və onlara verilən cavablar monitordakı cədvəllərdə diqqətinizə təqdim edilir. Daha geniş məlumat hesabatda vardır.

2021-ci ildə qadını nikaha daxil olmağa məcburetmənin baş verməsi ilə bağlı çoxsaylı faktlara rəğmən cəmi 1 cinayət qeydə alınmışdır. Erkən nikahla əlaqəli olan əmələ görə 6 cinayət işinə başlanılmışdır.

Dövlət Komitəsinin ictimaiyyət və qeyri-hökümət təşkilatlarının dəstəyi ilə təhsildən yayınma hallarının qarşısının alınması sahəsində görülmüş tədbirlər nəticəsində 60 nəfər (onlardan 21-i qızdır) müəyyən edilərək təhsilə cəlb edilməsi təmin olunmuşdur. 2020-ci ildə 18 yaşadək analar tərəfindən doğulan uşaqların sayı 1917-dən 2021-ci ildə 1650-yə enmişdir.

2021-ci ildə bu sahədə ən yuxarı göstərici Aran iqtisadi rayonunun payına düşür, daha sonra Gəncə-Qazax, Lənkəran və Yuxarı Qarabağ iqtisadi rayonları gəlir. Ötən illə müqayisədə Abşeron, Lənkəran, Quba-Xaçmaz, Aran, Dağlıq-Şirvan iqtisadi rayonlarında və Naxçıvan Muxtar Respublikasında azalmaya doğru müsbət tendensiya müşahidə olunmuşdur.

2021-ci ildə cins seçimi məsələsi yenə də fokusda qalmışdır. Hətta 2020-ci ilə nisbətən cüzi artım müşahidə olunur. Cins nisbəti hər 100 qıza 115 oğlan təşkil edir ki, bu göstəricinin bioloji normadan yüksək olması ölkədə hələ də uşaqların doğulanadək cins seçiminə məruz qaldığını göstərir.

**Hörmətli millət vəkilləri!**

Dövlətin idarə olunması və qərar qəbulu səviyyəsində bərabərlik tam təmin olunmasa da, bu sahədə müsbət inkişaf dinamikası mövcuddur. Qanunverici, icra və məhkəmə hakimiyyəti orqanlarındakı mövcud gender datasına və sahəvi ixtisaslar üzrə bölgüyə nəzər

salsaq müşahidə edərik ki, istər hüquq mühafizə orqanlarında, istərsə də sosial, diplomatik, aqrar, iqtisadi və digər sahələrdə müsbət və sabit tendensiyalar mövcuddur.

Misal üçün, 2021-ci ildə prokurorluq orqanlarında çalışan qadınların sayında 24%, Daxili İşlər Nazirliyində xidmət edən qadınların sayında isə 48,2% artım müşahidə olunmuşdur. Qrafikdən göründüyü kimi, gender bərabərliyinin təminatı faizində artım Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində 0.3%, Kənd təsərrüfatı Nazirliyində 4.9%, diplomatik xidmət orqanlarında çalışanlar arasında 1.9% təşkil etmişdir. Eyni tendensiya maliyyə, iqtisadiyyat, elm və təhsil blokunda çalışan işçilər arasında da müşahidə olunur.

Dövlət İmtahan Mərkəzinin təqdim etdiyi məlumata görə, test imtahanlarında uğur əldə edən şəxslərin yaş qrupu üzrə bölgüsündə əsasən qadın namizədlərin yüksək nəticə əldə etdikləri müşahidə olunur.

Müsahibələrdə uğur əldə edən və təyinat alan şəxslər barədə məlumatlara diqqət etsək, yalnız 18-24 yaş qrupu üzrə qadınların irəlidə olduğunu görərik. 2020-ci illə müqayisədə bu yaş qrupu üzrə 1,9% artım müşahidə olunur.

Gender pariteti baxımından bu yaş qrupunda olan qadınların sayının kişilərə nisbətən üstünlük təşkil etməsi çox vacib bir məqamdır. Bu rəqəmlər ali məktəbləri bitirən qadınların dövlət qulluğuna marağının artmasını, kişilərlə qadınlara bərabər imkanların yaradılmasını nümayiş etdirir. Bu maraq, eyni zamanda gənc qadınlar arasında “dövlət qulluqçusu olmağın üstünlüyünə dair” yeni trendin formalaşmasının indikatorudur. Nəticə etibarı ilə, gələcəkdə qadınların daha üstün mövqelərə yiyələnməsi üçün təməl yaradır.

Əldə olunan müsbət nəticələrin davamı olaraq qeyd etmək istərdim ki, Azərbaycan Həmkarlar İttifaqları qadınların əmək fəaliyyətinin yaxşılaşdırılması istiqamətində ötən il kişi və qadınlar üçün eyni əhəmiyyət kəsb edən məşğulluq, əməkhaqqı, gəlirlərin bölüşdürülməsi, əməyin mühafizəsi, qadınlara qanunla verilmiş hüquqların həyata keçirilməsi üzrə nəzarəti gücləndirib. İş yerlərinin yaradılması və qadınların məşğulluğunun həlli sahəsində işəgötürənlərlə effektiv dialoq qurub. Milli səviyyədə Üçtərəfli Baş Saziş, İqtisadiyyat sahələri üzrə tarif sazişləri və kollektiv müqavilələr imzalanıb.

Ümumilikdə isə əldə olunan data onu deməyə əsas verir ki, əvvəlki illərə nisbətən dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində qadınların rolu və iştirakında artım müşahidə olunur. Əksər mərkəzi icra orqanlarının strukturunda ümumi işçi sayında və

rəhbər işçilər sırasında kişilər irəlidə olsalar da, bəzi qurumların işçi bölgüsündə qadınlara daha çox etimad göstərilir. Rəhbər vəzifədə çalışan qadınların sayı qlobal trendlərə uyğun olaraq 2020-ci illə müqayisədə artmışdır.

**Hörmətli millət vəkilləri!**

BMT və bir sıra beynəlxalq təşkilatların Azərbaycan qarşısında qoyduğu prioritet məsələlərdən biri də gender bərabərliyinin təminatı sahəsində aparılan işlərin davamlılığı və effektivliyidir.

Çünki qender bərabərliyinin təmin edilməsi davamlı inkişafın zəruri komponentidir. Bu balansın pozulması təkcə aktual mənəvi-sosial problem deyil, həm də böyük iqtisadi problemdir. Əgər dünyanın əmək qabiliyyətli əhalisinin yarısını təşkil edən qadınlar əmək bazarında kişilərlə eyni imkanlara malik olsaydılar, qlobal illik ÜDM 2025-ci ilə qədər 28 trilyon ABŞ dolları arta bilərdi ki, bu da ümumi artımın 26%-i deməkdir.

Gender bərbərliyinin təmin olunmaması dolayısı ilə investisiya və əhalinin artımına da təsir edir ki, bu da iqdisadi multiplikatorların artımına mane olur. Dünya ekosisteminin vacib komponenti olan Azərbaycan əmək bazarında gender balansının qorunması üçün müxtəlif tədbirlər görülsə də əmək hüquqlarının həyata keçirilməsində paritetlə bağlı problemlər qalmaqdadır.

2021-ci ildə ölkə üzrə iqtisadi fəal və məşğul əhalinin tərkibində kişilərin sayı qadınların sayına nisbətən çox olmuşdur. İşsizliyin səviyyəsi qadınlar arasında 58%, kişilər arasında 42% olmuşdur.

2021-ci il üzrə kişilərlə qadınların orta aylıq əmək haqqları arasındakı fərq azalmışdır və paritetə doğru yüksələn dinamika üzrə irəliləyir. Burada, CEDAW - BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsinin 2022-ci ildəki qeydləri arasında – "İqtisadiyyatda qadınların fəallığı və məşğulluğu ilə əlaqədar "Əmək pensiyaları haqqında" qanuna qadın və kişilər üçün təqaüd və pensiya yaşını uyğunlaşdıran (65 yaş) dəyişikliyin edilməsi təqdirəlayiqdir" açıqlamasını da vurğulamaq istərdim.

Bildiyimiz kimi, iqtisadi fəallığın digər vacib indikatoru sahibkarlıqdır. Hesabat dövrü üçün dövlət reyestrində qeydiyyatda olan fərdi sahibkarın 22% qadın, 78% isə kişidir.

Müxtəlif fəaliyyət növləri üzrə sahibkarların gender bölgüsündən məlum olur ki, bütün fəaliyyət sahələrində kişilər üstünlük təşkil edir. İri seqmentdə isə qadnların ümumiyyətlə payı

yoxdur. Lakin orta sahibkarlar arasında qadınların artan say göstəricisi və dövlət dəstəyi gələcəkdə onların iri təsərrüfat subyektləri kimi formalaşacağına zəmin yaradır. Belə ki, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən qadın sahibkarlara verilən güzəştli kreditlərin məbləği 2020-ci ilə nisbətən 2 dəfə artmışdır.

2021-ci ildən etibarən KOB subyektlərinin layihələrinin maliyyələşdirilməsinə start verilmişdir. (Təqdim olunmuş layihələrdən 15-i maliyyələşdirilmişdir ki, onların 3-ü qadın sahibkardır. "Startap" şəhadətnaməsi əldə edən 27 KOB seqmentindən də 3-ü qadındır.)

**Dövlət Məşğulluq Agentliyi** tərəfindən 2021-ci il ərzində ölkə üzrə özünüməşğulluq proqramına cəlb olunmuş 16,230 nəfərdən 4400-ü qadınlardır. Sosial inkluzivlik prinsipi də qorunmaqla, 446 sağlamlığı məhdud qadın işlə təmin olunmuşdur.

Hesabat ili ərzində kənd təsərrüfatının inkişafı məqsədilə aqrar sektorda çalışan 375 qadın sahibkara 4,310,000 manat kredit və 3,205,000 manat güzəşt verilmişdir. 2021-2022-ci illərdə, ümumilikdə 56,000 artıq qadın fermerə dövlət büdcəsinin vəsaiti hesabına subsidiya ödənilmişdir.

Bütün bunlara rəğmən sahibkarlıq subyektlləri arasında qadınların xüsusi çəkisinin az olması bu sahədə aparılan işlərin gücləndirilməsini şərtləndirir. Xüsusilə kənd yerlərində qadın məşğulluğunun daha perspektivli istiqamətlərinin müəyyənləşdirilməsi vacibdir.

**Hörmətli millət vəkilləri!**

Azərbaycanda elm və təhsil sahəsində qadınların rolu, iştirakı və üstün təmsilçiliyi danılmazdır. Bu sahədə gender bərabərliyinin təminatı tam qorunur. Kişilərlə bərabər qadınlar da təhsilin bütün pillələrində fəal iştirak edir, gələcək karyeraları istiqamətində davamlı göstəricilərlə irəliləyirlər.

Ümumtəhsil məktəblərində şagirdlərin cins bölgüsü arasındakı fərq cəmi 7%-dir. Qadınlar daha çox orta ixtisas təhsilinə, kişilər isə peşəyönumü təhsilə üstünlük verirlər. Qadınlar ali təhsilin bakalavr pilləsində 51,8%, magistr səviyyəsində isə 49,7% paya malikdir.

Təhsil sahəsində əldə olunan məlumat təhsilalanlar və təhsilverənlər, o cümlədən təhsil müəssisələrinin rəhbərləri arasında qadınların xüsusi çəkisinin artmasına işarə edir. Elmi fəaliyyətlə məşğul olanlar arasında da qadınlar əhəmiyyətli paya malikdirlər. Bu cür

çağırışları qarşılamaq üçün təhsili müəssisələri üzrə qəbul planları layihələri hazırlanarkən qadınların maraqlı olduğu ixtisasların regionlar üzrə bölüşdürülməsinə xüsusi diqqət yetirilir. Eyni zamanda onların növbəti addımları - əmək bazarına daxil olmaları da planlaşdırılır.

Bu mərhələyə dəstək məqsədilə 2021-ci ilin mart ayından başlayaraq müxtəlif peşə təhsili müəssisələrinin nəzdində tələb olunan sahələr üzrə qısamüddətli təlimlər keçirilir. Qadınlar təhsilə və əmək bazarına maarifləndirici və peşəyönümü müzakirələr aparılmaqla təşviq edilir.

Ümumilikdə, təkcə Azərbaycanda deyil bütün dünyada gender fərqi təhsilin bütün pillələrində özünü əks etdirir. Qlobal indikatorlara nəzər salsaq, dünyada təhsilin ibtidai, orta və ali pillələri üzrə müqayisəli statistika göstərir ki, təhsil almaq, xüsusilə ali təhsilə yiyələnmək qadınlar arasında yüksələn trend kimi formalaşmışdır. Bu qənaəti Dünya İqtisadi Forumunun 2021-ci il üçün "Gender Hesabatında"kı məlumatdan hasil etmək mümkündür. Eyni zamanda hesabat gender pariteti baxımından Azərbaycandakı müsbət dinamikanı da nümayiş etdirir. Daha ətraflı məlumat hesabatda əks olunmuşdur.

**Hörmətli millət vəkilləri!**

Ölkədə gender bərabərliyinin təmin olunması sahəsində dövlətin vəzifələrinin tam və hərtərəfli icrasına təsir göstərən amillərdən biri də Qanunun 16-cı maddəsində siyasi partiyaların, QHT-lərin və həmkarlar ittifaqlarının üzərinə qoyulan öhdəliklərə münasibətdir.

Dövlət Komitəsinin adı çəkilən qurumlar arasında komunikasiyası qanunun icra vəziyyəti barədə məlumat mübadiləsi sahəsindəki bəzi boşluqları aradan qaldırmaqda mühüm rol oynayır.

Vətəndaş cəmiyyəti inistitutlarının fəaliyyəti ilə bağlı dövlət qeydiyyatından keçmiş 58 siyasi partiya fəaliyyət göstərir, ki onlardan 2-nə qadınlar rəhbərlik edir. Müzakirələri yaxın zamanda bitmiş və Dövlət Komitəsinin qadın iştirakçılığı və gender bərabərliyinin təminatı ilə bağlı müddəaların salınması təklifləri nəzərə alınmaqla, 30 noyabr 2022-ci il tarixdə "Siyasi Partiyalar Haqqında Qanun" Milli Məclis tərəfindən qəbul edilmişdir ki, bu da qadınların siyasi müstəvidə daha fəal olmalarını təmin edəcəkdir.

Seçki prosesinin əsas indikatoru olan Mərkəzi Seçki Komissiyasının kompozisiyasına da nəzər salmaq vacibdir. Belə ki, MSK-nın 18 üzvündən 14-ü kişi, 4-ü qadındır, onlardan 3

kişi və 1 qadın rəhbər vəzifədə təmsil olunur. 125 dairə seçki komissiyasının 1119 üzvündən 908-i kişi, 211-i qadındır.

Dünya ölkələri üzrə qadınların siyasi səlahiyyətlərinin artırılması sahəsində aparılan təhlil göstəriciləri də yüksək deyil. Belə ki, Davos Forumunun 2022-ci ildə 153 ölkə arasında apardığı təhlilə əsasən son 50 il ərzində parlament üzvlərinin ortalama 25%-nı qadınlar təşkil etmişdir. Nazir vəzifəsində çalışanların 79% kişi, 21% qadın olmuşdur. Ölkələrin 47%-da isə son 50 il ərzində cəmi bir dəfə qadın - dövlət başçısı olmuşdur.

Dövlət Komitəsi QHT-lərdə və vətəndaş cəmiyyəti müstəvisində gender paritetinin təmin edilməsini əhəmiyyətli göstəricilərdən biri hesab edir. 2021-ci ildə Azərbaycanda fəaliyyət göstərən 3582 qeyri-hökumət təşkilatından 424-nün (yəni, 12%-də) sədri qadındır.

Son dövrlər ölkəmizdə ictimai iştirakçılıq və ictimai nəzarət mexanizmlərinin yaradılması və inkişafı üçün müxtəlif addımlar atılmaqdadır. Mərkəzi və yerli icra hakimiyyətləri orqanlarının yanında **İctimai Şuraların fəaliyyətinin** və tərkibinin gender paritetli olması, qaldırdıqları məsələlərin xarakteri də günün vacib tələblərindən biridir. İctimai Şuralar gender bərabərliyinin təminatı istiqamətində qaldırılan qanunvericilik təşəbbüslərinin hazırlanmasında rəylərini bildirir, tövsiyələr hazırlayır, qəbul edilən normativ hüquqi aktların təşviqində, ictimai müzakirələrində yaxından iştirak edir.

**Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının məlumatına görə** 2021-ci il ərzində ümumilikdə həmkarlar ittifaqları üzvlərinin sayında kişilər 48%, qadınlar 52% təşkil edir. Rəhbər vəzifələrdə çalışanlar arasında qadınların sayında da 3% artım olmuşdur.

**Hörmətli millət vəkilləri!**

2021-ci il üzrə hesabatındakı məlumatların təhlili belə qənaətə gəlməyə imkan verir ki, Azərbaycanda gender bərabərliyi sahəsində müsbət tendensiyalar formalaşmağa başlayıb və bəzi hallarda bu trendlər qlobal göstəriciləri üstələyir.

2021-ci ildə inzibati vəzifələrə təyin edilmiş qadınların sayında 2020-ci ilə nisbətən artım özünü göstərməkdədir.

Həmçinin hazırda Azərbaycanda bilik iqtisadiyyatı formalaşır və bu sahədə dövlət tərəfindən ciddi tədbirlər həyata keçirilir. Məhz bu siyasətin məntiqi nəticəsidir ki, respublikada savadlılıq səviyyəsi 100%-ə yaxındır. Kişilər və qadınlar təhsilin bütün pillələrində bərabər şəkildə fəal iştirak edir.

Qadınların bilik və bacarıqlarının artırılması sahəsində onlayn təlimlərə qatılması dinamikası da nəzərəçarpandır. Əlamətdar məqam ondan ibarətdir ki, bilik və kompetensiyalar “yumşaq bacarıqları” da əhatə edir ki, bu da qadınlar arasında liderlik və innovatorluğun güclənməsinə səbəb olur.

Davos İqtisadi Forumunun məlumatına əsasən, dünyada elm, texnologiya, mühəndislik və riyaziyyat fənləri üzrə təhsil alanların 35% qadınlardır. Azərbaycanda bu göstərici 40% təşkil edir və orta dünya göstəricisindən yüksəkdir. Hazırda Azərbaycanda magistrlərin 54%-i, fəlsəfə doktorlarının 51%-i, elmlər doktorlarının 46%-i və elmi tədqiqatçıların 56%-i qadınlardır.

Bütün bunlar qeyd etməyə əsas verir ki, qadınların siyası təmsilçiliyi, iqtisadi sahədəki fəallığı, özəl və dövlət qurumlarında qərarvermə proseslərindəki iştirakı ilə əlaqədar müşahidə edilən dayanıqlı trendlər gender bərabərliyinin təmin edilməsi istiqamətində aparılan məqsədyönlü, sistemli və davamlı fəaliyyətin indikatorlarıdır**.**

Lakin həllini tapmamış bir çox məsələlər də vardır ki, onlara növbəti ildə diqqət yetirilməsi vacibdir. Qrafikdən göründüyü kimi dünya regionlarının da gender paritetinə nail olmaları üçün kifayət qədər zaman tələb olunur. Azərbaycan da Şərqi Avropa və Mərkəzi Asiya ölkələri ilə sinxron qaydada bu məsafəni hazırki templə təqribən 139 ilə qət edə biləcək.

*Dövlət Komitəsi gender bərabərliyinin təmin edilməsi sahəsində proseslərin dinamikasına impuls vermək üçün, mövcud boşluqların aradan qaldırılması və ölkəmizin üzərinə götürdüyü beynəlxalq öhdəliklərin yerinə yetirilməsi məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsini zəruri hesab edir. Onların bəzilərini səsləndirir və diqqətinizə təqdim edirəm:*

✓ BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına dair Konvensiyasından (CEDAW) irəli gələn öhdəliklərin həyata keçirilməsi sahəsində fəaliyyətlərin gücləndirilməsi;

✓ “Azərbaycan Respublikasında Gender bərabərliyi üzrə 2023-2025-ci illər üçün Milli Fəaliyyət Planı”nın layihəsinin qəbul edilməsi;

✓ “Ailə planlaşdırılması və reproduktiv sağlamlıq haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsi.

✓ Gender əsaslı büdcə siyasəti və praktikasının formalaşdırılması;

- ✓ Uşaqların, xüsusi ilə qız uşaqlarının təhsildən yayınması ilə bağlı monitorinqlərin gücləndirilməsi;
- ✓ İctimai həyatın bütün sahələrində, dövlət və özəl sektorlarda idarəetmə və qərarqəbuletmə səviyyəsində qadınların kişilərlə bərabər təmsilçiliyinin artırılması;
- ✓ Qadın sahibkarlıq subyektlərinin yaradılması və inkişafının stimullaşdırılması üzrə yeni mexanizmlərin işlənilməsi;
- ✓ Qadınların rəqabətliliyinin artırılması məqsədilə əmək bazarında prioritet sahələr üzrə peşə hazırlığının təşkili;

**Hörmətli Millət Vəkilləri!**

Şərqdə qadınların hüquqlarını tanıyan ilk demokratik ölkə olan Azərbaycan, beynəlxalq təşkilatların qarşıya qoyduğu vəzifə və tösiyələri davamlı yerinə yetirməklə kişi və qadınların bərabər hüquq, səlahiyyət və imkanlara mailik olmasını dəstəkləyir, onların siyasi həyatda, əmək sahəsində, ailədə yerinin düzgün müəyyənləşdirilməsilə ahəngdar cəmiyyət quruculuğu və firavan həyatın təmin edilməsinə imkan yaradır.

Yekunda vurğulamaq istərdim ki, diqqətinizə təqdim edilən və hesabatda əks olunan mövzular media və vətəndaş cəmiyəti nümayəndələri ilə mütəmadi olaraq müzakirə edilir.

Təqdim edilən məlumatların toplanılması və tərtib edilməsi 51 qurumun, o cümlədən dövlət və qeyri hökümət təşkilatlarının birgə kooperasiyası nəticəsində mümkün olmuşdur. Operativ məlumat mübadiləsi və məhsuldar əməkdaşlığa görə Dövlət Komitəsi adından bütün qurumlara, cəmiyyətin inkişafı naminə işimizdə bizə dəstək olan yerli və beynəlxalq tərəfdaşlarımıza, müstəqil ekspertlərə təşəkkürümü bildirir, qanunvericiliyin təkmilləşdirilməsi sahəsində dəstəyinə və hərtərəfli əməkdaşlıq səylərinə görə AR Milli Məclisinin rəhbərliyinə və parlamentin üzvlərinə minnətdarlığımı ifadə edirəm!

**Diqqətinizə görə çox sağolun!**